# Paris Azərbaycanın Zəfəri ilə heç cür barışa bilmir

"Olimpiya hərəkatının əsası qoyulandan bəri ona xüsusi münasibət olub. Bu yarışlar keçirilərkən müharibələr, münaqişələr dayandırılır, yarışlar idman bayramına çevrilir. Çox təəssüf ki, 33-cü Yay Olimpiya Oyunları zamanı bu ənənənin Fransa tərəfindən pozulduğunu gördük".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Musa Qasımlı deyib. O bildirib ki, birincisi, Fransa yenə Ermənistanı silahlandırmaqla Cənubi Qafqazı qarışdırmaq niyyətini həyata keçirməyə çalışır. İkincisi, Olimpiya Oyunları keçirən bir ölkənin belə davranışı dünya ictimaiyyətinə hörmətsizlikdən başqa bir şey deyil və Olimpiya ənənələrinin pozulmasıdır. "Olimpiadanın açılış mərasimində Azərbaycana hörmətsizlik edildi. Ölkəmizin idmançıları tribuna önündən keçərkən səsləndirilən fikirlər, bayrağımızın asılması, himnimizə olan münasibət Fransanın iyrənc siyasətini bir daha göstərdi. Sübut olundu ki, Fransa Azərbaycanın işğalçı dövlət üzərində qələbəsini özünün məğlubiyyəti kimi qəbul edir. Bu dövlət ölkəmizin parlaq qələbəsi ilə heç cür barışa bilmir", - deyə deputat əlavə edib.

Fransa tərəfindən İsa Məsihin təhqir edildiyini xatırladan M.Qasımlı qeyd edib ki,  bu fakt Parisin xristianlığa da ləkə gətirdiyini göstərir. Bu da bir daha təsdiqləyir ki, Ermənistan xristian dininə necə ləkə gətirirsə, Fransa da bunu davam etdirir. Fransanın azadlıqdan, demokratiyadan, bərabərlikdən, ədalətdən danışmağa haqqı yoxdur. Rəsmi Parisin iyrənc hərəkətlərini müasir dünya qəbul etmir. Amma onun bütün bu davranışlarını ayaqlar altına alan idmançımız, qızıl medal qazanan Hidayət Heydərov oldu.

Deputat vurğulayıb ki, Hidayət Heydərovun Parisdə fransız idmançı üzərində qazandığı parlaq qələbə Fransa üzərində qazanılan qələbə idi: "Bu qələbə döyüş, hərbi, siyasi-diplomatik cəbhədə, informasiya müharibəsində Azərbaycanın qazandığı qələbənin idman meydanında davamı idi. Azərbaycanın Olimpiya Oyunlarında qızıl medal qazanması, himnimizin səsləndirilməsi, bayrağımızın ucaldılması Fransa və onun kimi siyasət yürüdənlərə bir cavabdır. Bu qələbədən sonra Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın Hidayət Heydərova zəng etməsi Azərbaycanda idmana göstərilən qayğının təzahürlərindən biridir".

Müsahibimiz sonda vurğulayıb ki, Azərbaycan hər cəhətdən Fransadan üstün ölkədir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.8.